# 20 Yanvar–qəhrəmanlıq salnaməsi



## Şəhidlər unudulmur



Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr edilmiş “Şəhidlər unudulmur” adlı tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə rayon rəsm qalereyasının mərkəzin foyesində açılmış “Unudulmayanlar” adlı sərgisi ilə tanış olublar.

Dəyirmi masa ətrafında davam etdirilən tədbiri giriş sözü ilə mərkəzin direktor əvəzi Kəmalə Qasımova açaraq 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet qoşunlarının Azərbaycan xalqına qarşı törətdiyi hərbi təcavüz nəticəsində insanların vəhşicəsinə qətlə yetirildiyini iştirakçıların diqqətinə çatdırıb, 20 Yanvar faciəsinin başvermə səbəbləri barədə məlumat verib.

Tarix-diyarşünalıq muzeyinin əməkdaşı İlhamə Seyidova, dövlət rəsm qalareyasının əməkdaşı Təzəgül Nəcmiyeva və digər çıxış edənlər ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışından sonra onun təşəbbüsü ilə qanlı yanvar hadisələrinə siyasi-huquqi qiymət verildiyini, faciənin dünya ictimaiyyətinə doğru, düzgün çatdırılmasında və beynəlxalq müstəvidə tanıdılmasında onun atdığı addımların mühüm rol oynadığını vurğulayıblar.

20 Yanvar faciəsinin bu gün həm də xalqımızın şərəf və qəhrəmanlıq tarixinin önəmli səhifələrindən biri kimi qeyd edildiyini bildiriblər.

Sonda 20 yanvar hadisələrindın bəhs edən videoçarx nümayiş etdirilib.

**Heydər Əliyev Mərkəzi.**

## Şeir müsabiqəsi

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə yanvarın 19-da təhsil şöbəsinin akt zalında 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar yeniyetmə və gənclər arasında “Şəhidlər unudulmur” mövzusunda şeir müsabiqəsi keçirilmişdir.



Müsabiqənin açılış mərasimində şəhidlərin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova və gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov tədbirdə çıxış edərək, “20 yanvar faciəsi”nin baş vermə səbəbləri, faktlar və həqiqətlər barədə danışmış, bu faciəni doğuran o vaxtkı ictimai-siyasi hadisələr barədə tədbir iştirakçılarına məlumat vermişlər.

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılmış qanlı yanvar hadisəsində şəhid olanların əziz xatirəsinin xalqımızın yaddaşından heç vaxt silinməyəcəyi və şəhidliyin müqəddəs bir zirvə olduğu diqqətə çatdırılmışdır.

Müsabiqədə rayonun müxtəlif məktəblərindən olan 20-dən artıq şagird iştirak etmişdir. Onlar torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizə, milli qəhrəmanlarımıza və vətənpərvərlik mövzusuna həsr olunmuş şeirlər səsləndirmişlər.

Müsabiqənin əsasnaməsinə uyğun olaraq Nuray Bəkirli I yerə, Nərmin Musayeva və Selcan Rəfizadə II yerə, Jalə Soltanzadə, Sadiq Hacıyev və Nərmin Ağasıyeva III yerə layiq görülmüşlər.

Qaliblər gənclər və idman İdarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Mübariz AGAYEV,**
***gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.***

## 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunub

Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan şahmat turnirinə yekun vurulub. Turnirdə 3 yaş qrupunda 54 şahmatçı mübarizə aparıb.



*Şəkildə:* Selcan Rəşidova.

Turnirin açılışında gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və məktəbin direktoru Ədalət Əliyev çıxış edərək 20 Yanvar faciəsinin xalqımıza qarşı törədilmiş dəhşətli cinayət olduğunu bildiriblər. Diqqətə çatdırılıb ki, həmin gecə Azərbaycanın mərd oğul və qızları imperiya qüvvələri qarşısında əyilməyib, xalqımızın qəhrəmanlıq tarixinə şanlı səhifə yazıblar.

Bildirilib ki, turnirin keçirilməsində məqsəd şəhidlərin xatirəsini yad etmək, həmçinin yeniyetmə şahmatçıların ustalıqlarını artırmaq, şahmatın kütləviliyinə nail olmaq, rayonun yığma komandasının tərkibini müəyyənləşdirməkdir.

Yarışın yekununa əsasən, müxtəlif yaş qrupları üzrə oğlanlar arasında İsmayıl Osmanlı, Tağı Tağıyev, Əmrah Əzizov, qızlar arasında isə Selcan Rəşidova, Aysun Əzizli və Həqiqət Tağıyeva birinci olublar.

Turnirin qalibləri diplomlarla mükafatlandırılıblar.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

## Xatirəsi əbədidir

Yaşasaydı bu gün onun 51 yaşı tamam olacaqdı. Bu ona qismət deyilmiş.

Mahir Tofiq oğlu Hüseynov 20 yanvar 1968-ci ildə Qəbələnin Bum qəsəbəsində ziyalı ailəsində dünyaya göz açıb. 1975-ci ildə Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. 1985-ci ildə orta təhsilə yiyələnib.



Mahir ibtidai sinifdə mənim şagirdim olub. Olduqca sakit, təmkinli, mehriban, sevimli bir şagird idi. Dərslərindən həmişə əla qiymətlər alardı. Yoldaşları ilə çox mehriban davranardı. Həm də çox utancaq idi. Yuxari siniflərdə də əla oxuyurdu. Orta məktəbi əla və yaxşı qiymətlərlə başa vurduqdan sonra 1985-ci ildə o, indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə daxil olub. Birinci kursu bitirdikdən sonra 1986-ci ildə hərbi xidmətə çağırılıb. İki il Almaniya Demokratik Respublikasında xidmət edib. Onun əsgəri xidməti də nümunəvi keçib. Dəfələrlə komandanlığın təşəkkürlərini alıb. Hərbi xidmətdən sonra təhsilini davam etdirən Mahir Hüseynov 1992-ci ildə ali təhsilini başa vurub.

Ölkəmiz üzərinə hücum çəkən erməni quldurlarının azğınlığı digər qeyrətli Vətən oğulları kimi onu da rahat buraxmırdı. Könüllü olaraq Ağdərədəki «N» saylı hərbi hissənin tərkibinə yazılmışdı. O, Mehmanə kəndi uğrunda gedən ağır döyüşlərdə itkin düşüb və ona şəhidlik statusu verilib.

Vətən yolunda canını qurban vermiş Mahir Tofiq oğlu Hüseynovun xatirəsi əbədi olaraq onu tanıyanların qəlbindədir. Şəhidlər ölmürlər, onlar əlçatmaz bir zirvəyə ucalırlar.

Vətən yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin ruhları şad olsun.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü,**
**«Qızıl qələm» media mükafatı laureatı, «Qəbələ»nin müxbir postunun rəhbəri.**

## Tariximizin şərəf və qəhrəmanlıq salnaməsi-20 Yanvar

Azərbaycan xalqının qan yaddaşına əbədi həkk olunmuş 20 Yanvar faciəsinin 29-cu ildönümü Qəbələdə silsilə tədbirlərlə qeyd olunur. Rayonun idarə və təşkilatlarında, təhsil müəssisələrində anım mərasimləri keçirilir, sərgilər təşkil edilir.

Belə tədbirlərdən biri də rayon telekommunikasiya qovşağında keçirilib. "20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq salnaməsidir" adlı tədbirdə şəhidlərimizin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə 20 Yanvar gününün ümumxalq faciəsi, eyni zamanda müstəqillik, istiqlal və azadlıq uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunduğu qeyd edilib.

Çıxış edənlər bildirmişlər ki, bu təcavüz xalqımızı mənəvi cəhətdən sarsıda bilməmiş, əksinə 20 Yanvar günü xalqımızın qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazılmışdır.

**“Qəbələ”**

## Azadlıq fədailəri

Qəbələ şəhər 3 nömrəli tam orta məktəbində 20 Yanvar Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir məktəblilərin ifasında bu dəhşətli faciəyə həsr olunmuş kompozisiya ilə başlanmışdır.

1990-cı ilin soyuq yanvar günündə xalqımızın başına gətirilən qanlı hadisələr bir daha xəyallarda canlanmışdır.

Məktəbin müəllimi Ramin Nəbiyev 20 Yanvar hadisələri barədə məruzə etmişdir.

Qeyd olunmuşdur ki, ötən əsrin 80-cı illərinin sonunda ermənilərin xalqımızın başına gətirdiyi ağlasığmaz faciələr, respublikamıza qarşı ərazi iddiaları xalqın səbr kasasını doldurmuşdu. Xalqın fədakar oğul və qızları ermənilərin vəhşiliyinə, mərkəzi hakimiyyətin onlara havadarlıq etməsinə qarşı öz etiraz səslərini ucaltmışdılar.

SSRİ rəhbərliyi erməni vandallarına dur demək əvəzinə əliyalın vətən oğul və qızlarımızın üzərinə ən müasir hərbi texnika və silahlarla təchiz edilmiş ordu göndərmişdir.

Bu misli görünməmiş qətliamda 140 nəfərə qədər Vətən övladı şəhid olmuş, 800-ə qədər dinc vətəndaş yaralanmış və həbsə salınmışdır.

Məktəbin direktoru Ədilə Əliyeva çıxışında qeyd etmişdir ki, 20 Yanvarda sinəsini imperiya ordusunun güllələrinə sipər edənlər əsil azadlıq fədailəridir və onlar heç vaxt unudulmayacaqlar.

Şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirik.

**Vəfa ALXASLI,**
**məktəbin müəllimi.**